## Elnur SOLTANOV:

# "COP29-da hər kəsə atəşkəsə riayət olunması ilə bağlı çağırış edəcəyik"

**"COP29-da hər kəsə atəşkəsə riayət olunması ilə bağlı çağırış edəcəyik".**

Bunu Azərbaycanın energetika nazirinin müavini və COP29-un baş icraçı direktoru Elnur Soltanov Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və GLOBSEC2024-ün birgə təşkilatçılığı ilə "COP29 və yaşıl üfüqlər: İqlim dəyişikliyinin idarə edilməsi" mövzusunda keçirilən paneldə deyib.

The VONA & The Tide təhsil və məşvərət platformasının təsisçisi Sofia Şevçukun (Sofiia Shevchuk)un moderatorluğu ilə keçirilən paneldə iqlim dəyişmələrinə qarşı fəaliyyətlərin və dünyada yaşana biləcək arzuolunmaz ssenarilərin qarşısının alınması üçün regionlararası əməkdaşlığın vacibliyi vurğulanıb.

E.Soltanov indiyədək Azərbaycan tərəfindən danışıqlar və praktiki addımlar istiqamətləri üzrə görülən işlər barədə məlumat verib. Nazir müavini daha sonra Azərbaycanın irəli sürdüyü 14 təşəbbüs barədə danışaraq qeyd edib ki, onlardan 3-ü maliyyə məsələləri ilə bağlıdır, 4-5 bənd isə özündə enerji və "yaşıl keçid" məsələlərini ehtiva edir.

---

Azərbaycan.- 2024.- 3 sentyabr, (№ 190).- S.15.